KHAZAR UNIVERSITY

# XƏZƏR PSİXOLOJİ XİDMƏT MƏRKƏZİ

- Fərdi psixoloji konsultasiyalar
- Qrup terapiyaları
- Beynəlxalq psixologiya konfransları
- Psixoloji təlim və seminarlar
- Psixoloji testlərin tətbiqi
- Tələbələrə psixoloji dəstək
- Peşəkar  inkişaf üçün təlimlər
- Elmi tədqiqatlar
- Layihələr

AZ1096
Məhsəti küç. 41
Bakı, Azərbaycan
(994 12) 421 10 93 — 254 (daxili)
(994 12) 421 79 16 — 275 (daxili)
psychology@khazar.org
www.khazar.org

KHAZAR UNIVERSITY

# AZƏRBAYCAN VI BEYNƏLXALQ PSİXOLOGİYA KONFRANSI

**20-21 Aprel 2019**



BAKI 2019

# AZƏRBAYCAN VI BEYNƏLXALQ PSİXOLOGİYA KONFRANSI

20-21 Aprel 2019

# PROQRAM

## MƏRUZƏÇİLƏR HAQQINDA MƏLUMAT

**Prof. Halil Ertuğrul KÖROĞLU**



1982-ci ildə Hacettepe Universitetinin Tibb fakültəsini bitirmişdir. Dövlət proqramı ilə farmokologiya üzrə doktorantura proqramına daxil olmuşdur. Daha sonra Gazi Universiteti Tibb fakültəsinin Psixiatriya kafedrasında tədqiqatçı və müəllim olaraq fəaliyyətinə davam etmişdir. 1988-1989-cu illərdə ABŞ-da Houston Baylor kollecinin psixiatriya kafedrasında klinik psixiatriya, yuxu fiziologiyası və pozuntuları sahəsində dosent olaraq işləmişdir. 1991-ci ildə dosent, 39 yaşında professor olmuş və Kocaeli Universiteti Tibb fakültəsində kafedra müdiri və dekan olaraq işləmişdir. Asılılığın müalicəsində xüsusi yeri olan mötivasiyaedici müsahibə (*Motivational Interviewing*) təlimiçisi olmaq hüququ qazanmışdır. Amerikanın New York Albert Ellis Psixoterapiya İnstitutunun REP sertifikatlı psixoterapiya təlim proqramını tamamlayaraq, Türkiyədə beynəlxalq səviyyədə tanınan sertifikata sahib baş məsləhətçi olmuşdur. Philadelphia Beck Psixoterapiya İnstitutunun Zehni Terapiya və Linehan İnstitutunun Dialektik Davranış Terapiyası proqramlarında iştirak etmişdir. Hazırda bu təlimləri Türkiyədə də davam etdirir. Türkiyədə ən yüksək təchizatlı maddə asılılığı müalicə mərkəzini, Boylam Psixiatriya Xəstəxanasını qurmuşdur və Boylam Psixiatriya İnstitutunda fəaliyyətini hələ də davam etdirir. Amerika Psixiatriya Birliyi psixiatriya sahəsindəki uğurlarına görə onu “Beynəlxalq Fellow” olaraq təyin etmişdir. Amerika Davranış və Koqnitiv Terapiya Dərnəyinin üzvüdür. Avropa Davranış və Koqnitiv Terapiyalar Dərnəyinin də Türkiyə təmsilçisi və idarə heyətinin üzvüdür.



## Bazar günü, 21 Aprel 2019

| | |
|---|---|
| 09:30 - 10:50 | **Prof. Ertuğrul Köroğlu** - İstəkləndirici görüşmə və İstəyi gücləndirmə terapiyasının tətbiqi qaydaları (ümumi iştirakçılar üçün) |
| **10:50 - 11:10** | ***Çay fasiləsi*** |
| 11:10 - 12:30 | **Dr. Alp Karaosmanoğlu** - Şema Terapiyanın xüsusiyyətləri (ümumi iştirakçılar üçün) |
| **12:30 - 13:30** | ***Nahar fasiləsi*** |
| 13:30 - 14:50 | **Dos. Meliha Tuzgöl Dost** - Psixoloji konsultasiyada bütüncül baxış - müdaxilə texnikaları |
| 13:30 - 14:50 | **Dos. Ümit Sahranc** - Çətin pasiyentlərlə psixoterapiyalar |
| **14:50 - 15:10** | ***Çay fasiləsi*** |
| 15:10 - 16:30 | **Dos. Meliha Tuzgöl Dost** - Psixoloji konsultasiyada bütüncül baxış - müdaxilə texnikaları |
| 15:10 - 16:30 | **Dos. Ümit Sahranc** - Çətin pasiyentlərlə psixoterapiyalar |
| 16:40 - 17:40 | **Prof. Külteğin Ögel** - Asılılıq problemində yanaşma (ümumi iştirakçılar üçün) |
| 17:40 - 18:00 | Sertifikatların təqdim olunması - Xəzər Psixoloji Xidmət Mərkəzinin direktoru, Psixologiya Departamentinin Koordinatoru **Mələk Kərimova** / (**Mərmər Salon** - ümumi iştirakçılar üçün) **Konfransın bağlanışı / Mərmər Salon** |

**20-21 Aprel 2019**
**Xəzər Universiteti, Bakı /Azərbaycan**
**PROQRAM**

**Şənbə günü, 20 Aprel 2019**

| | |
|---|---|
| **09:00 - 09:30** | **Qeydiyyat** |
| 09:30 - 10:00 | Konfransın açılışı - Video təqdimat |
| 10:00 - 10:15 | **Prof. Hamlet İsaxanlı** - Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri |
| 10:15 - 10:30 | **Dos. İradə Xəlilova -** Xəzər Universitetinin rektoru |
| 10:30 - 11:00 | **Prof. Ertuğrul Köroğlu** - İstəkləndirici görüşmə və İstəyi gücləndirmə terapiyasına giriş |
| 11:00 - 11:30 | **Prof. Külteğin Ögel** - Asılılıq haqqında hər şey |
| **11:30 - 11:45** | ***Çay fasiləsi*** |
| 11:45 - 12:15 | **Dos. Ümit Sahranç** - Psixoterapiyada psixoterapist |
| 12:15 - 12:45 | **Dos. Meliha Tuzgöl Dost** - Duyğu mərkəzli terapiyalar |
| 12:45 - 13:15 | **Dr. Alp Karaosmanoğlu** - Şema terapiyaya giriş |
| **13:15 - 14:15** | ***Nahar fasiləsi*** |
| 14:15- 15:35 | **Prof. Ertuğrul Köroğlu** - İstəklendirici görüşmə və İstəyi gücləndirmə terapiyasının tətbiqi qaydaları (ümumi iştirakçılar üçün) |
| 15:35 - 16:55 | **Dr. Alp Karaosmanoğlu** - Şema terapiyaya giriş (ümumi iştirakçılar üçün) |
| **16:55 - 17:10** | ***Çay fasiləsi*** |
| 17:10 - 18:00 | **Prof. Külteğin Ögel** - Asılılıq problemində yanaşma (ümumi iştirakçılar üçün) |



**Prof. Külteğin ÖGEL**



TED Ankara kollecindən məzun olduqdan sonra Gazi Universitetinin Tibb fakültəsini bitirmişdir. 1992-ci ildə Psixiatriya uzmanlıq təhsilini Bakırköy Ruh və Sinir xəstəlikləri xəstəxanasında almışdır. Tibbi Hipnoz dərnəyinin qurucu üzvlərindən biridir. 1994-cü ildə Bakırköy Xəstəxanası ilə yanaşı həm də Acıbadem Xəstəxanasında da fəaliyyət göstərmişdir. "Şizofrengi" jurnalının qurucularındandır. 1998-ci ildə Psixiatriya üzrə dosent adına layiq görülmüşdür.
2010-cu ildən etibarən isə professor adını daşıyır. 2004-cü ildən etibarən UNICEF ilə birlikdə uşaq və yeniyetmə cəza evlərində sosial layihələr həyata keçirməyə başlamışdır. Bundan əlavə, Okan Universitetində klinik psixologiya ixtisasında təhsil alan magistr tələbələrinə psixofarmokologiya fənnini dərsini tədris edir. Acıbadem Xəstəxanasında psixiatriya və psixologiya qrupunun qurulmasında Cem İncəsu ilə birlikdə işləmişdir. Moodist Psixiatriya Xəstəxanasında fəaliyyət göstərir.
Tibbi Hipnoz Dərnəyinin qurucusu, Türk Psixiatriya Dərnəyinin Mərkəzi yönətiminin üzvü, Psixiatrik Tədqiqatlar və Təhsil Mərkəzi Dərnəyinin rəhbəridir.
Bu günə qədər çox sayda təlim və konfranslarda çıxış etmişdir.
Beynəlxalq və yerli jurnallarda çox maraqlı məqalələrin müəllifidir.

**Dos. Meliha TUZGÖL DOST**



1994-cü ildə Hacettepe Universiteti Psixoloji danışmanlıq və rəhbərlik ixtisasında bakalavr dərəcəsini, 1998-ci ildə isə həmin kafedrada magistr dərəcəsini almışdır. 2004-cü ildə "Universitet tələbələrinin özünü yaxşı hissetmə səviyyələri" adlı doktorluq dissertasiyasını müdafiə etmişdir. 1994-1998-ci illərdə Türkiyə Təhsil Nazirliyinə bağlı idarədə Psixoloq konsul-

tant, 1998-2004-cü illərdə Hacettepe Universiteti Təhsil fakültəsində tədqiqatçı, 2004-cü ildən indiyə qədər isə Hacettepe Universitetində müəllim və tədqiqatçı olaraq fəaliyyətini davam etdirir.
Psixoterapiya İnstitutunun 3 illik Psixoterapiya və Şema terapiyasının əsas kursunu tamamlamışdır. Türk Psixoloji Xidmət və Rəhbərlik Dərnəyi, Psixoterapiya İnstitutu Dərnəyi və Psixoterapiyada Bütünləşmə Tədqiqatları Dərnəyinin üzvüdür.
2010-2011-ci illərdə Hacettepe Universiteti Təhsil Fakültəsində dekanköməkçisi, Üstün qabiliyyətli uşaqların qiymətləndirməsi layihəsində komissiya üzvü, 2013-2015-ci illərdə "Üstün qabiliyyətli uşaqların tədqiqat mərkəzi"nin müdir müavini olaraq fəaliyyət göstərmişdir. 2012-2016-cı illərdə Bolonya prosesi təhsil şöbəsinin koordinatoru vəzifəsini icra etmişdir. Hazırda Hacettepe Universitetinin həm müəllim, həm də bakalavr tələbələrinin akademik məsləhətçisidir.

**Dos. Ümit SAHRANÇ**



1995-ci ildə Orta Doğu Texnik Universitetindən məzun olmuşdur. 2000-ci ildə isə Hacettepe Universiteti Psixoloji Danışmanlıq və Rəhbərlik kafedrasında magistr dərəcəsi almışdır. 2007-ci ildə Gazi Universitetində "Stresin idarə edilməsi, ümumi yetərlilik, situativ təşviş və yaşamdan məmnuniyyətlə əlaqəli bir model" adlı elmi işini müdafiə edərək doktor elmi dərəcəsi almışdır. 2005-2006-ci ilin iyul ayında 300 saatlıq İnteqrativ Terapiya təlimini tamamlayır. 2014-cü ilin may ayında Avropa Pozitiv Psixoterapiya Assosiasiyasının və Olgu Psixoloji Xidmət mərkəzinin iş birliyi ilə 800 saatlıq təlimi də almışdır. 2015-ci ilin fevral-aprel aylarında Şema terapiyası təlimində iştirak etmişdir. 2016-cı il oktyabr ayından etibarən isə Zehni Davranış Terapiyası təliminə davam etməkdədir. Geştalt, Krizə müdaxilə, hipnotik indüksiyon texnikaları kimi müxtəlif sahələrdə də təlim almışdır. O, eyni zamanda 1999-cu il zəlzələ ərazisində UNICEFin dəstəyi ilə Psixososial Dəstək layihəsinin iştirakçısı, xüsusi qayğıya ehtiyacı olanların təlimi və öyrənməsi, maddə asılılığı olan insanların müəyyən edilməsi, reabilitasiyası və yerləşdirilməsi mövzusunda Kiel-Almanya Reabilitasiya Mərkəzlərinin incələnməsi layihələrində aktiv iştirak etmişdir.
Beynəlxalq və yerli jurnallarda maraqlı məqalələrin müəllifidir.

**Dr. Alp KARAOSMANOĞLU**



1993-cü ildə Ege Universitetinin Tibb fakültəsindən məzun olmuşdur. Bakırköy Ruh və Sinir Hastalıkları Xəstəxanasında psixiatriya ixtisasına yiyələnmişdir.
Analitik istiqamətli qrup terapiyaları, zehni və davranışçı psixoterapiya, cinsi funksiyaların pozuntuları sahəsində təhsilini artırmışdır. 2000-ci ildə PsixoNet, Psixoterapiya təhsil mərkəzini qurmuşdur. Hazırda mərkəzin idarə heyətinin sədridir. Zehni və davranış terapiyası təhsilini və superviziyasını bitirdikdən sonra, 2002-ci ildə Şema terapiya ilə maraqlanmağa başlamışdır və 2005-ci ilin əvvəllərindən etibarən bu müalicə metodunun Türkiyədə tanınması və tətbiqi məqsədilə təlimlərə başlamışdır. Beynəlxalq Şema Terapiya Birliyi tərəfindən (yüksək səviyyədə) Şema terapisti və təlimçisi olaraq tanınan Alp Karaosmanoğlu bu təlimlərini hazırda da davam etdirir.
2003-cü ildə etibarən Psixonet Psixoterapiya Mərkəzini quran psixiatr, zehni, Şema və davranış terapiyası mövzularında müxtəlif kitabların tərcümələrində və nəşr edilməsində aktiv rol almışdır. Şema terapiyanın Türkiyədə tanıdılmasında əvəzsiz rolu var.

frame.az